# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi




Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Ödəniş hesabları haqqında məlumatın təqdim edilməsi
- Energetika haqqında yeni Qanun
- Elektron kredit və zəmanət informasiya sistemi
- Məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması
- Lisenziya və icazənin ləğvinin yeni əsası
- Banklara kreditlərin verilməsi Qaydalarına dəyişikliklər
- Rəqabət Məcəlləsinin Milli Məclis tərəfindən qəbul edilməsi
- Süni intellekt ilə bağlı dövlət standartı
- Reklam yerləşdirilməsini tənzimləyən yeni qaydalar

## Ödəniş hesabları haqqında məlumatın təqdim edilməsi

*15 noyabr 2023-cü il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Elektron pul təşkilatları tərəfindən hüquqi şəxslərə, xarici hüquqi şəxslərin yerli filiallarına və fərdi sahibkarlara açılmış ödəniş hesabları haqqında məlumatın təqdimedilmə formasının və müddətinin təsdiq edilməsi barədə" Qərar **("Qərar")** qəbul etmişdir.*

Qərara əsasən məlumatın təqdimedilmə forması təsdiq edilmiş və ödəniş hesablarının açıldığı tarixdən 1 iş günü müddətində elektron pul təşkilatlarının həmin məlumatı Dövlət Vergi Xidmətinə elektron qaydada təqdim etməsinə dair tələb qoyulmuşdur.

Bu Qərar 29 noyabr 2023-cü il tarixində qüvvəyə minmişdir.

## Energetika haqqında yeni Qanun

*24 oktyabr 2023-cü il tarixində Milli Məclis 1006-VIQ nömrəli "Energetika haqqında" Azərbaycan Respublikasının Qanununu **("Qanun")** qəbul edib və 1998-ci il tarixli, 541-IQ nömrəli "Energetika haqqında" Azərbaycan Respublikasının Qanunu **("Əvvəlki Qanun")** isə qüvvədən düşüb.*

Qanun energetika subyektləri, dövlət orqanları (qurumları) və tənzimləyicinin, habelə enerji istehlakçılarının fəaliyyətlərini tənzimləyir.

Qanuna əsasən energetika subyektləri energetika sahəsində aşağıdakı fəaliyyət növlərindən biri və ya bir neçəsini həyata keçirən hüquqi və ya fiziki şəxslər kimi müəyyən olunub:

- Enerji resurslarının kəşfiyyatı
- Enerji resurslarının işlənilməsi və hasilatı
- Enerji resurslarının emalı
- Enerjinin istehsalı
- Enerjinin saxlanılması
- Enerjinin nəqli (ötürülməsi)
- Enerjinin paylanması
- Enerjinin idxalı və ixracı
- Enerjinin topdan və (və ya) pərakəndə satışı
- Təbii qaz və elektrik enerjisi bazarlarının fəaliyyətinin təşkili

Əlavə olaraq, Qanun energetika sahəsində Azərbaycan Respublikası və xarici ölkələrin fiziki və hüquqi şəxsləri tərəfindən özəl investisiyanın, o cümlədən dövlət-özəl tərəfdaşlığının təşviqini nəzərdə tutur.

Bu Qanun 5 dekabr 2023-cü il tarixində qüvvəyə minib.

## Elektron kredit və zəmanət informasiya sistemi

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 dekabr 2023-cü il tarixli Qərarı ilə "Elektron kredit və zəmanət" informasiya sisteminin Əsasnaməsi ("**Əsasnamə**") təsdiq edilib.*

Bu Əsasnaməyə əsasən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektləri, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq dövlət zəmanəti ilə kredit almaq üçün elektron informasiya sistemi vasitəsilə müraciət edə bilərlər.

İnformasiya sistemi dövlət zəmanəti ilə kredit almaq istəyən sahibkarlıq subyektləri üçün elektron kabinetin yaradılması, Azərbaycan Biznesinin İnkişafı Fondunun və müvəkkil kredit təşkilatlarının müvafiq qərarları və bildirişlərinin yerləşdirilməsini və müvafiq məlumatların alınmasını təmin edir.

Həmçinin Əsasnamədə informasiya sisteminin sahibi, operatoru və iştirakçılarının hüquq və vəzifələri də əks olunub.

Əsasnamə 5 dekabr 2023-cü il tarixində qüvvəyə minmişdir.

## Məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması

*8 dekabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu*

*sahədə nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Qərar **("Qaydalar")** qəbul edib.*

Qaydalar işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sığortaedənlər (sığortaolunanlar) tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılması şərtləri, subsidiyaların ödənilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi qaydasını tənzimləyir.

Bu Qaydalara əsasən "sığortaedən" dedikdə bu tələblərə uyğun gələn hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslər nəzərdə tutulur: (i) qeyri-dövlət sektoru üzrə neft-qaz sahələrində fəaliyyət göstərməyən; (ii) işğaldan azad edilmiş ərazilərdə fəaliyyətini həyata keçirən; və (iii) həmin ərazilərdə vergi uçotuna alınan şəxslər.

Qaydalar sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının dövlət büdcəsinin vəsaiti hesabına subsidiyalaşdırılmaması hallarını da özündə əks etdirir. Subsidiyalaşdırılmayan hallara (lakin bunlarla məhdudlaşmadan) sığortaedənin məcburi dövlət sosial sığorta haqları üzrə borcunun olması, riskli vergi ödəyicisi hesab edilməsi və ya müraciət dövründə kameral vergi yoxlaması nəticəsində uyğunsuzluğun aşkar edilməsi halları daxildir.

Qaydalar 11 dekabr 2023-cü il tarixində qüvvəyə minib.

## Lisenziya və icazənin ləğvinin yeni əsası

*24 oktyabr 2023-cü il tarixində "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu **("Dəyişiklik")** qəbul edilib.*

Dəyişikliyə görə dövlət rüsumunun və ödənişin ödənilməsi faktını təsdiq edən sənəd lisenziya və icazə verən orqanın verdiyi məlumatın alındığı tarixdən 5 iş günü ərzində təqdim edilmədikdə, lisenziya və icazə verən orqanın inzibati aktı ilə lisenziya və icazə ləğv edilir.

Dəyişiklik 27 noyabr 2023-cü il tarixində qüvvəyə minib.

## Banklara kreditlərin verilməsi Qaydalarına dəyişikliklər

*30 noyabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankının "Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən banklara kreditlərin verilməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə" Qərarı **("Dəyişikliklər")** qəbul edilib.*

Dəyişikliklərə əsasən Mərkəzi Bank sonuncu instansiya kreditoru kimi qısamüddətli likvidlik çatışmazlığı ilə üzləşmiş banklara müddəti altı aydan çox olmayan, yalnız bir dəfə həmin müddətə uzadıla bilən kreditlər verə bilər.

Əlavə olaraq, maliyyə bazarlarının sabitliyinə təhdid yarandığı hallarda Mərkəzi Bankın İdarə Heyəti digər şərtlərlə və daha uzun müddətə sonuncu instansiya kreditinin verilməsi barədə qərar qəbul edə bilər.

Dəyişikliklərdən əvvəl kreditin müddətinin artırılması nəzərdə tutulmamış və sonuncu instansiya krediti üçün maksimum müddət altı ay müəyyən olunmuşdu.

Bu Dəyişikliklər 13 dekabr 2023-cü il tarixindən etibarən qüvvəyə minib.

## Rəqabət Məcəlləsinin Milli Məclis tərəfindən qəbul edilməsi

*8 dekabr 2023-cü il tarixində "Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi Milli Məclis tərəfindən üçüncü oxunuşda qəbul edilib.*

Bu Məcəllənin Prezident tərəfindən imzalandıqdan sonra və 1 iyul 2024-cü il tarixindən etibarən qüvvəyə minməsi gözlənilir.

## Süni intellekt ilə bağlı dövlət standartı

*24 noyabr 2023-cü il tarixində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən "İnformasiya texnologiyaları — Süni intellekt — Süni intellektə dair anlayışlar və terminologiya" dövlət standartı **("Standart")** qəbul edilib.*

Standart süni intellekt texnologiyasının daha yaxşı anlaşılması və istifadə edilməsi üçün terminologiyanı özündə ehtiva edir.

Standart, burada müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə, həmçinin digər dövlətlərin mütərəqqi milli standartlarına və elm və texnologiyanın müasir nailiyyətlərinə uyğun olmasını müəyyənləşdirmək üçün ildə 1 dəfə yoxlanılır.

## Reklam yerləşdirilməsini tənzimləyən yeni qaydalar

*6 dekabr 2023-cü il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə "Reklam qurğularına Texniki Tələblər"də dəyişiklik edilməsi haqqında" Qərar **("Dəyişiklik")** qəbul olunmuşdur.*

Dəyişiklik binalarda, tarix və mədəniyyət abidələrinin ərazilərində və onların mühafizə zonalarında, həmçinin memarlıq abidələrinin və ya binaların fasadlarında və dam örtüklərində reklam qurğularının yerləşdirilməsinə dair yeni texniki tələbləri müəyyən edir.

Dəyişiklik 7 dekabr 2023-cü il tarixində qüvvəyə minmişdir.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



**Arzu Hacıyeva**
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



**Məmməd Balacanov**
Baş Menecer, Hüquq xidmətinin rəhbəri,
Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilər, əməkdaşlar və bütövlükdə cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılmasına və kapital bazarlarına inamın artırılmasına töhfə verməklə daha yaxşı iş dünyasının qurulmasına çalışır.

EY şirkətinin çoxprofilli komandaları dünyanın 150-dən çox ölkəsində təmsil olunur. İnformasiya və texnologiyalardan istifadə edərək əməkdaşlarımız məlumatların doğruluğunu təsdiq etməklə etimadı təmin edir və müştərilərə fəaliyyətlərini uğurla inkişaf və transformasiya etdirməyə kömək edirlər.

EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində mütəxəssisləri bu gün dünyamızın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

EY, Qafqaz və Mərkəzi Asiyadan olan şirkətlərlə əməkdaşlıq edir və onlara biznes məqsədlərinə çatmağa köməklik göstərir. Almatı, Bakı, Bişkek, Nur-Sultan, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 8 ofisimizdə 1300-dən çox mütəxəssis çalışır.

© 2023-cü il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. “EY” hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

**ey.com/az**